BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ TERMİNOLOGİYA MƏSƏLƏSİ

Könül Həsənova

ADPU-nun Filologiya fakültəsinin dekanı

Filologiya üzrə fəlsəfə doktoru, dosent

konul.hasanova@adpu.edu.az

https://orcid.org/0000-0001-8795-252X

Xülasə: Birinci Türkoloji Qurultay 1926-cı ildə Azərbaycan filoloqu H.Zeynallının elmi terminologiyanın yaradılması ilə bağlı məruzəsi ilə başladı. H.Zeynallı türk xalqlarında terminologiyanın olmamasından, tərcümədəki uyğunsuzluqlardan şikayət etdi və terminlərin ümumi prinsiplər əsasında hazırlanmasının vacibliyini vurğuladı. O, türk sözlərinin geniş istifadəsi və əcnəbi terminlərin türk ləhcələrinə uyğunlaşdırılmasını təklif etdi. Qurultayda Odabaş, Baytursun, Suleyev və Manatov kimi digər nümayəndələr də terminologiya mövzusunda çıxış etdilər. Baytursun mədəniyyətlərarası söz alınmalarını və ədəbi dilin əsaslarını izah etdi. Suleyev və Zifeldin ərəb və fars sözlərinin çoxluğunu tənqid edərək, onların dilimizdən azaldılmasını tələb etdilər. Manatov isə dialekt və şivələrin terminologiyaya təsirini müdafiə etdi. Qurultay sonunda terminologiya məsələlərinin tədqiqi və inkişafı üçün xüsusi komissiya yaradıldı. Sonrakı dövrlərdə türk dillərində termin yaradıcılığı və dilə yeni sözlərin daxil olması müxtəlif mərhələlərdə davam etdi. Bu proseslərdə Qurultayın müəyyən etdiyi metod və prinsiplər geniş şəkildə tətbiq olundu.

Açar sözlər: Birinci Bakı Türkoloji Qurultayı, terminologiya, vahid termin sistemi, elmi dil, tərcümə problemləri.

Giriş. Dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda xalqın tarixi yaddaşını, dünyagörüşünü, mədəni və intellektual potensialını əks etdirən mürəkkəb semiotik sistemdir. Hər bir dilin inkişaf səviyyəsi onun terminoloji potensialı, anlayışları ifadə etmək imkanları və elmi düşüncəni adekvat şəkildə formalaşdırmaq qabiliyyəti ilə birbaşa bağlıdır. Bu baxımdan elmi terminologiyanın formalaşması milli dilin funksional imkanlarının genişlənməsi və elmi diskursda özünəməxsus mövqe qazanması baxımından xüsusi əhəmiyyət daşıyır.

XX əsrin əvvəlləri türk xalqları üçün həm siyasi, həm də mədəni-intellektual dirçəliş dövrü olmaqla yanaşı, milli dillərin elmiləşdirilməsi istiqamətində sistemli təşəbbüslərin meydana çıxdığı mərhələ kimi səciyyələnir. Bu kontekstdə 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay yalnız ümumtürk elmi-mədəni inteqrasiyanın deyil, həm də türk dillərində terminoloji sistemin elmi prinsiplər əsasında formalaşdırılması baxımından dönüş nöqtəsi hesab olunur. Qurultayın gündəliyində terminologiya məsələsinin ayrıca mövzu kimi müzakirəyə çıxarılması bu problemin strateji mahiyyətini aydın şəkildə ortaya qoyur.

Qurultay çərçivəsində "Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri haqqında" mövzusu ətrafında aparılan müzakirələr terminlərin milli mənbələr əsasında yaradılması, alınma terminlərin uyğunlaşdırılması, semantik dəqiqlik, anlaşıqlılıq və normativlik kimi meyarların elmi diskursun əsas komponentləri kimi qəbul edilməsinə zəmin yaratmışdır. Bu müzakirələr yalnız termin yaradıcılığı praktikası deyil, eyni zamanda dil siyasəti, milli kimlik və elmi suverenlik problemləri ilə də sıx şəkildə bağlı olmuşdur.

Tədqiqat. 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının elmi-mədəni inkişafında terminologiya məsələsinin sistemli şəkildə gündəmə gətirildiyi mühüm mərhələdir. Qurultayın səkkizinci iclasında "Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri haqqında" mövzusu ətrafında aparılan müzakirələr termin yaradıcılığının elmi-normativ əsaslar üzərində qurulmasının zəruriliyini ortaya qoymuşdur. Müzakirələrdə əsas

problem kimi alınma terminlərin həddindən artıq çoxluğu, terminlərin milli dilin fonetik və semantik normalarına uyğunlaşdırılmadan işlədilməsi, eyni anlayışın müxtəlif adlarla ifadə olunması və terminoloji qeyri-sabitlik qeyd edilmişdir.

Qurultayda terminlərin mümkün qədər türk dillərinin daxili imkanları əsasında yaradılması əsas prinsip kimi qəbul edilmişdir. Bu yanaşma terminlərin semantik şəffaflığını, anlaşıqlılığını və normativliyini təmin etməyi hədəfləmişdir. Eyni zamanda beynəlxalq terminlərin tam inkarı deyil, onların milli dil sisteminə uyğunlaşdırılaraq işlədilməsi zəruri hesab olunmuşdur. Bu prinsip millilik və beynəlmiləllik arasında tarazlığın qorunmasına xidmət etmişdir.

Birinci Türkoloji Qurultayda irəli sürülmüş terminoloji prinsiplər sonrakı dövrlərdə Azərbaycan elmi terminologiyasının formalaşmasına ciddi təsir göstərmiş, terminoloji lüğətlərin hazırlanması və termin yaradıcılığında milli modellərin tətbiqi üçün metodoloji əsas yaratmışdır. Bu baxımdan Qurultay milli elmi dilin normalaşması və terminoloji sistemin elmi əsaslarla qurulmasında həlledici mərhələ kimi qiymətləndirilir.

Terminologiya probleminin müzakirəsinə Qurultayın 2 mart 1926-cı ildə keçirilən səkkizinci iclasında Ağamalıoğlunun sədrliyi ilə başlanıldı və mövzu "Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri haqqında" adlanırdı. Bu mövzu ilə bağlı Estoniyadan gəlmiş ədəbiyyatçı nümayəndəsi feildən, Azərbaycandan isə B.Çobanzadənin məruzələri dinlənildi və hər ikisi alqışlarla qarşılandı. Zifeld öz məruzəsinə dilin dünyada öz inkişaf qanunlarına əsasən təkamül etdiyini, onun insanlar arasında ünsiyyət vasitəsi olması, hər bir ictimai quruluşun öz dil norma və formasına sahiblənməsi, insan cəmiyyətinin mədəni-iqtisadi inkişaf mərhələləri ilə bu və ya digər şəkildə üst-üstə düşməsi, hər bir texniki və social-iqtisadi problemlərlə qaçılmaz olaraq vəhdət təşkil etməsi və s. kimi məsələlərə toxunaraq dedi ki, "*Patriarxal – icma quruluşu ibtidai aiə - matriarxat qruplarının kasıb və anlaşılmaz dili ilə ilə kifayətlənə bilməzdi. Öz növbəsində, knyazlıq – tayfa quruluşu, tayfa ittifaqı, barbar hərbi monarxiya, feodalizm və i.a. dilin quruluşunun müvafiq təkmilləşdirilməsini və onun yeni terminlərlə zənginləşməsini tələb edirdi*" (1, s.172). Dəyişən sosial formasiyalara inteqrasiya oluna bilməyən dillərin tez bir zamanda tarix səhnəsi tərk etdiyini, yerlərini böyük dillərə verdiyini, hər hansı bir başqa ölkə ilə iqtisadi əlaqələrin genişləndirilməsi zamanı söz alıb söz verdiyini, ara müharibələri nəticəsində hərbi qarnizon dilinin, alış-verişlə bağlı isə ticarət mərkəzlərinin dilinin əmələ gəlməsini bir sözlə, terminlərinin dillərə daxil olma səbəblərini şərh edən natiq xüsusi olaraq göstərdi ki, "Digər bütün bərabər olduğu hallarda, həddən artıq ağır və əlverişsiz strukturlu, ümumi qaydalardan tabe söz və frmalardan daha çox olan, yaxud lüğət materialı baxımından kasad dillərin yaşamaq şans daha azdır. Qrammatik quruluşu nizmlama istiqamətində daim təkmilləşən, arxaizmləri vaxtında rədd edən, müasir tarixi dövr və ictimai quruluş üçün zəruri olan yeni sözlərlə vaxtında zənginləşən və həmin sözləri öz dilinin qanunlarında ciddi tabe edən dillərin gələcəyi isə, əksinə, daha yaxşı təmin edilib" (1, 173).

Arxaikləşmiş sözlərin tədricən dilin lüğət tərkibindən çıxması, işgüzarlıq anlamını nitqində isə onların yerini yeni, fikri dəqiq ifadə edən leksemlərin tutması, həddən artıq yaxın tələffüz edilən, çətinlik yaradan sözlərin qısalaşdırılması və sair amillərin iqtisadiyyat, texnika, siyasi həyatın mürəkkəbləşdikcə insanların beynində də yeni sözlərin ifadəsini tələb edən yeni anlayışların yığılıb qalması və həmin sözlərin dilin fonetik qanunlarına uyğunlaşdırılmasına və dövriyyəyə buraxılmasını sovet hakimiyyətinin və onun elmi idarə və müəssisələrinin yaranmasının tələbi ilə bağlayan Zifeld məruzəsinin müəyyən bir hissəsində qeyd edir ki, "Hərc-mərcliyin hökm sürdüyü kapitalizmdən fərqli olaraq, sosializm planlı təsərrüfat, təbiətin, zəhmətkeş bəşəriyyətin mənafeləri naminə şüurlu surətdə tənzimlənməsidir. Sosializm dilçilik və dilin inkişafı sahəsində də belədir. İstehsalın kortəbiiliyi, fərdi təşəbbüs və fərdi təsərrüfatın hökmranlığı ilə səciyyələnən kapitalizm dövründə dil dəyişməsi ilə fərdi qaydada ayrı-ayrı şairlər və belletristlər məşğul olurdular. Onların oxucuların ifadəsinə əyalət sözlərin, neologizmləri təqdim edir, söz yaradıcılığı ilə məşğul olurdular; onların işini jurnalistlər davam

etdirir, dilin amansıcasına barbarizmlərlə doldururdular. Filoloq – nəzəriyyəçilər yalnız faktı qeydə alır və qrammatika qaydalarını körtəbii şəkildə yaranan ziyalı ədəbi dilinə uyğunlaşdırırdılar" (1, s.174).

Türkdilli əhalisi olan sovet respublikalarından terminoloji komissiyaların üzvlərinin vaxtaşırı əyalətlərə ekspedissiyalar təşkil olunması, hər hansı bir terminin dilə gətirilməzdən əvvəl xalq kütlələrinin rəyinin sorğu keçirərək nəzərə alınması, milli ədib və alimlərdən ibarət komissiyanın tərkibinin yaradılması, əldə edilən uğurların vaxtaşırı dövri mətbuatla ictimaiyyətə çatdırılması, bütün şəxslərin demokratik şəraitdə fikir mübadiləsinə imkan verilməsi və s. kimi nüanslar Zifeldin məruzəsində qırmızı xətlə keçdi.

Türk xalqlarının ədəbi dillərini yaratmaq uğrundakı mübarizədə demək olar ki, köməksiz olduğuna, əvvəlki sosial-siyasi dönəmlədə formalaşan bu ədəbi dillərin böyük mülkədar – zadəganlar, ruhanilər və ticarət burjuaziyasının hökmranlığının əksi olduğunu, köhnə dövrlərdə bu dili formalaşdıran savadlı və ziyalı ədiblərinin böyük əksəriyyətinin ərəbləşmiş müsəlman ruhanilərə mənsubluğunu, ya da əmirlər, xanlar, bəylər, mirzələr, yaxud tacirlərdən iqtisadi asılılığını və bütün bunlarla bağlı alınma söz və terminlərin ərəb dilinə məxsusluğu, həmin leksik vahidlərin ya ərəb, ya da fars dilinin qrammatik qaydalarına tabe olunması məsələləri Zifeldin məruzəsində aydın cizgilərlə faktlaşdırıldı, sərhəddini tapdı. Müxtəlif zamanlarda Türkiyədə, Avropanın müxtəlif ölkələrində, İranda, Suriyada, ərəb ölkələrində təhsil almış və vətənə qayıtmış şəxslərin nitqində fərqliliklər özünü göstərirdi və bu baxımdan Zifeld məruzəsində ədəbi dilə münasibətdə türkdilli xalqların böyük əksəriyyətində 4 əsas cərəyanı fərqləndirir və "*sadəlik üçün onları 4 şərti adlar ətrafında təqdim edir: 1) panislamçılar; 2) avropalaşdırılanlar; 3) pantürkçülər; 4) xalqçılar (demokratlar)"* (1, s.175).

Məruzəçi nitqində bu cərəyanlara məxsus şəxslərin nitq aktlarında təzahür edən Osmanlı türkcəsinin, ərəb-fars, Avropa dil elementlərinin zərərli cəhətlərindən geniş söhbət açdı və onların ayrı-ayrılıqda ədəbi dillərə vurduğu zərbələri iclas iştirakçılarının diqqətinə çatdırdı. Ədəbi dilin xalq dilinə qayıdışı əleyhinə hansı etirazlarının irəli sürülə biləcəyini nəzərdən keçirən, müəyyən çətinliklərin meydana çıxma səbəblərini arqumentləşdirən məruzəçi xalq dilinin bütün dialekt və şivələrindən istifadə etdikdən sonra ya ədəbi dildə boşluqlar qalacağını və bunları yalnız alınmalar hesabına doldurmaq lazım gəldiyini vurğulamış və mühüm qaydaya riayət etməyin zəruriliyini aşağıdakı kimi göstərmişdir:

"1. *Alınan söz iqtibas edən edən dilə xas olan müəyyən səslər sərhəddini aşmamalıdır; 2) alınan sözdə yalnız iqtibas edən diləxas olan müəyyən səs uyuşmaları və sıraları ola bilər; 3) alınma söz ahəng qanununa uyğun gəlməlidir; 4) danışanın qüvvələrinin psixo-fiziki qənaəti baxımından, dilin ümumi üslubunu ciddi şəkildə saxlamaq zəruridir*" (1, s.177).

Göstərdiyi bu iqtibas mətnlərini eston ədəbiyyatçısı Zifeld öz təfəkkür səviyyəsinə uyğun ayrı-ayrılıqda öz münasibətini bildirmiş, Azərbaycan dili üçün digər türk dillərindəki terminlərdən, ümumtürk dillərində Qərbi Avropa dillərindən alınmaların,ərəb-fars dillərindən alınmış dini terminlərindən, istifadənin səmərəliliyindən danışmış və sonda bir qayda əsasında - əcnəbi dillərdən terminləri yalnız ən zəruri hallarda, dilin özünün bütün imkanları istifadə edildikdə götürmək lazımdır" (Stenoqram, s.178).

İclasda Azərbaycan filoloqu B.Çobanzadənin "Elmi terminologiya sistemi haqqında" adlı məruzəsi 4 kitab səhifəsi həcmindədir və burada natiq öz məruzəsinin nəticələrini türk dilində qurultay iştirakçılarının diqqətinə çatdırır ki, "biz də öz növbəmizdə həmin ümumiləşdirmələrə münasibətimizi bildirməklə xülasə etməyə çalışacağıq. Məruzəçinin nəzərincə, Avropa xalqlarının terminologiya sahəsində qarşılıqlı münasibətinin əsaslarının güclü olması bu xalqlarda çoxdan terminologiyanın formalşmasını sübuta yetirir. Tibb sahəsində terminlərin bütün dünya xalqlarının həkimləri üçün ortaq olduğunu məruzəçi doğru-düzgün meyarlarla əsaslandırmışdır. Asiya tanrısının monqolidlər, teymurilər dövrünü götürərək B.Çobanzadə terminologiya ənənəsində müəyyən xalqların dil ümumiliyinin şərtləndirilməsi ilə nəticələrin – elmi-mədəni dil əlaqələrinin üstün cəhətlərini səciyyələndirirdi. Türk dillərinə keçərkən mənəvi qohum dillərdə terminoloji leksika üçün ümumi bir bazanın olmasını, yəni ümumtürk fondunun

olmasını qeyd etdi və terminologiya tərtib edilərkən bunun nəzərə alınmasını vacib şərtlərdən saydı. Eston nümayəndəsi Zifeldin ərəb və fars dillərindən alınmış dini terminlərin dilimizə hansı yollarla gəlib çıxdığı ilə bağlı fikirlərinə tənqidi münasibətini bildirən B.Çobanzadə göstərirdi ki, "*sırf türk dilinə xas olan aqqlütnasiya, sinharmonizm bizdə ərəb, fars dillərindən alınmalarla pozulub. Dilimiz bu alınmalar nəzərə alınmaqla*, *bütövlükdə, təmiz türk dili deyil, odur ki, o əsas aqqlütinasiya və ahəng qanunu tələblərinə də tam tabe olmur*" (1, s.180).

Çobanzadə türk dillərində terminologiya yaradarkən elmi anlayış və elmi nəzəriyyələrə diqqət yetirməyin zəruriliyini önə çəkdi və bu tip terminlərin Avropa təhsilinə əsaslanmağın yollarını göstərdi və Avropa bazasında da ümumi bir fondun formalaşdığını qeyd etdi və terminologiya üçün üç əsas bazanı – ümumtürk, ərəb-fars, xalqlarını bir-birindən fərqləndirdi və buna əsaslanaraq bir neçə tezis irəli sürdü və bu tezislərdən ən əsası ondan ibarət idi ki, terminlərsiz məktəblərdə tədris işlərini həyata keçirməyin qeyri-mümkün olması, məktəblilər üçün terminlər lüğəti yaratmaq ehtiyacının meydana çıxacağı, məsələnin pedaqoji tərəflərini, tədqiqat işlərinin aparılması prosesində terminlərdən istifadənin əhəmiyyətindən söhbət açdı və terminlər lüğətinin tərtibi prinsiplərinin özəl meyarlarını da göstərdi: "*Hər bir sözə ayrıca bir hərfin müvafiq gəlməsini tələb edən əlifba prinsipi kimi, elmi terminologiya dahər bir anlayış qarşısında müvafiq bir ayrıca sözün dayanmasınıvə onların bir-birinə qarışmamasını istəyir*" (1, s.181).

B. Çobanzadə I Türkoloji Qurultaya qədər terminologiya məsələsi ilə bağlı bir sıra məqalələr yazaraq dövrü mətbuatda dərc etdirmişdir ki, bunların bəzilərinin həmin məsələnin məktəblərdə şagirdlərə öyrədilməsi metodikasından da danışmışdır. Sovet hakimiyyətinin ilk illərində məktəblər iki pilləli idi və məruzəçi birinci pillədə rus, II pillədə isə Avropa isə mənşəli terminlərin tədris edilməsini, bu xüsusda onların məna xüsusiyyətlərinin öyrənilməsini nəzərdə tutaraq təklif edirdi ki, "*hamımız, bütün türk xalqları elmi terminologiyanın yaradılmasına və Avropa klassik ədəbiyyatına keçidə hazırlaşmalıyıq. Bunun üçün 3 əsas götürməliyik: müsəlman, ərəb-fars, ümumtürk və Avropa hissəsinə münasibətdə vahid mənbəyə istiqamətlənməliyik*" (1, s.181). Çobanzadənin məruzəsinin nəticə hissəsi təxminən 14 ibarət olmaqla burda ərəb-fars, türk dillərinə məxsus terminoloji vahidlərin çətinliklərindən bəhs edilmiş və onlardan asanlıqla çatışmazlıqları və çətinlikləri aradan qaldırmağın mümkün yollarını gətirdiyi nümunələrlə şərh etmişdir.

Görkəmli dilçi-tarixçi-türkoloq A.Zifeldin və B.Çobanzadənin terminologiya sistemi ilə bağlı məruzələrində bir-birini tamamlayan, üst-üstə düşən cəhətlər xeyli saydadır, lakin Stalin diktaturası bu iki böyük yaradıcı xüsusiyyətdən keçməmiş, hər ikisinə əks-inqilabçı, pantürkist damğası vurularaq min bir əzab əziyyətlə öldürülmüşdür. Əgər repressiyanın amansız – qəddar ölüm maşınının qurbanı olmayaydılar. A.Zifeld və B.Çobanzadə böyük dilçi və tarixçi kimi terminoloji sistemin hərtərəfli tədqiqi sahəsində misli görünməmiş səviyyələrdə işlərə imza atmış olardılar və şübhəsiz ki, özlərinin irəli sürdükləri prinsiplər və metodlar əsasında didaktika və ədəbiyyatşünaslığa, pedaqogika və psixologiyaya, metallurgiyaya, silah avadanlıqlarına, musiqi sahəsinə, riyaziyyat, hüquq, kimya və s. kimi elmi əsərlərinə aid terminoloji leksikanı dərindən öyrənərək türkologiya elmini nəzəri cəhətdən daha da zənginləşdirmişlər. Hər iki məruzəçinin çıxılarında üst-üstə düşən əsas cəhətlər bundan ibarətdir ki, ərəb-fars, rus, Avropa dillərindən alınmış terminlərin türkcələrdə qarşılığı müəyyənləşdirilməli və əgər yoxdursa, həmin dillərdən alınmaları türkcələrin fonetikasına uyğunlaşdırılaraq geniş xalq kütlələrinin ixtiyarına verilməli; istər alınma, istərsə də milli terminlərin bütün səciyyəvi xüsusiyyətlərinə, yəni onların dəqiqliyinə, konkretliyinə, qısalığına, tamamlanmağına, asanlığına, işlənilməsi məhdudiyyətinə ciddi fikir verməli və sonradan xalq kütlələrinə təqdim olunmalıdır; terminoloji komissiyaların işçinin günün tələbləri səviyyəsində qurmaq üçün onlara geniş imkanların verilməsi və s. Bu xülasə etdiklərimizi B.Çobanzadə hələ Qurultay çağrılmamış illər əvvəl yazdığı "Türkcə sərf və nəhf təlimatları" adlandırdığı məqaləsində göstərmişdir: "*Avropa istilahlarını almalı, türkcə istilah yaratmalı və əski ərəb istilahlarını mümkün qədər sadələşdirərək hələlik istifadə etməməliyik*" (1, s.35).

Qurultaydan keçən 100 il ərzində nəinki Azərbaycanda, o sıradan bütün türk xalqlarının türkologiya və başqa elm sahələrində, daha dəqiqi nəzəri dilçilik sahəsində A.Zifeldin və B.Çobanzadənin məruzələrində əksini tapan terminologiya sisteminin öyrənilməsi barədə söylədikləri elmi fikir və müddəalar öz aktuallığını itirməmiş, nəticədə türkoloji arenada bu nəhəng alimlərin terminoloji konsepsiyası tədqiqatçıların maraq dairəsini zəbt etmiş və türk xalqlarında böyük bir terminoloqlar nəsli yetişmişdir.

Nəticə. Aparılan təhlil göstərir ki, Birinci Türkoloji Qurultay türk xalqlarının, xüsusilə Azərbaycan dilinin elmi terminologiyasının formalaşmasında konseptual və metodoloji baxımdan həlledici mərhələ olmuşdur. Qurultay çərçivəsində terminologiya probleminin ayrıca elmi mövzu kimi gündəmə gətirilməsi milli elmi dilin təşəkkülünün təsadüfi deyil, sistemli və planlı şəkildə aparılmasının vacibliyini ortaya qoymuşdur.

Qurultayda irəli sürülmüş terminoloji prinsiplər – terminlərin milli dilin daxili imkanları əsasında yaradılması, semantik şəffaflıq, anlaşıqlılıq, normativlik və alınma terminlərin uyğunlaşdırılması – sonrakı dövrlərdə Azərbaycan elmi terminologiyasının inkişafında metodoloji baza rolunu oynamışdır. Bu prinsiplər terminoloji sistemin həm elmi dəqiqliyini, həm də milli xarakterini qorumağa xidmət etmişdir.

Nəticə etibarilə, Birinci Türkoloji Qurultayın terminoloji baxışları Azərbaycan dilinin elmi funksional üslubunun formalaşmasına mühüm töhfə vermiş, milli elmi diskursun sabit və davamlı terminoloji sistem üzərində qurulmasına zəmin yaratmışdır. Bu baxımdan Qurultay müasir terminologiya problemlərinin həllində də nəzəri və metodoloji istinad nöqtəsi kimi aktuallığını qoruyub saxlayır.

Ədəbiyyat

1. 1926-cı il I Bakı Türkoloji Qurultayının stenoqram materialları, biblioqrafiya və foto-sənədlər. Tərtib edənlər: Nərimanoğlu K.V., Ağakişiyev Ə. Bakı, “Çinar-çap”, 2006.
2. Babayev A. 1998) Bəkir Çobanzadənin yeni Azərbaycan əlifbası və orfoqrafiyası uğrunda mübarizəsi, Bakı.
3. Birinci Türkoloji Qurultayının Stenoqram hesabatı, (1926) 26 fevral-5 mart.
4. Cəfərov N., Hüseynova M., Qəribli A. Birinci Türkoloji Qurultayda etnoqrafiya məsələləri. https://edebiyyatqazeti.az/news/sience/13215-birinci-turkoloji-qurultayda-etnoqrafiya-meseleleri
5. Eyvazov P. I (2016) Bakı Türkoloji Qurultayında Bəkir Çobanzadə türk dillərinin leksik quruluşu haqqında. Müasir Türkologiya: Dünən, bugün və sabah. Respublika elmi konfransının materialları, Bakı, “Elm və təhsil”,.
6. Fərəh A. (2006) Birinci Türkoloji Qurultay haqqında düşüncələr, Ədəbiyyat qəzeti, Bakı.
7. Hacıyev T. (2012) Azərbaycan ədəbi dili tarixi II hissə, Bakı, Elm, 389 s.
8. Hacıyev T. (2006) Birinci Türkoloji Qurultayda dil məsələləri / BDU-nun “Bakı Universiteti Xəbərləri” elmi jurnalı. Bakı, № 2, s. 18-26.
9. Həbibbəyli İ. (2016) Birinci Türkoloji Qurultayın dərsləri və müasir çağırışlar. “Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans:Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar” beynəlxalq konfransın materialları, I hissə, Bakı, S. 7-12.
10. İbrahimov E. (2017) Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili, Bakı:Mütərcim.
11. Məmmədova E. Birinci türkoloji qurultay və dil məsələləri. Elmi iş. Humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal. №10, 2019/49
12. Tahirov İ. (2016) I Türkoloji Qurultay və müqayisəli dilçilik məsələləri. “Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans:Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar” beynəlxalq konfransın materialları, I hissə, Bakı, S. 72-75